

# Ağstafada rəsm qalereyası

*Bir neçə ay əvvəl rayon mədəniyyət və turizm şöbəsinə şad xəbər daxil oldu. Respublika Mədəniyyət və Turizm naziri Ə.Qarayev 31 may 2007-ci il tarixdə Ağstafa rayonunda Dövlət Rəsm Qalereyasının yaradılması barədə əmr imzaladı.*

Rayonun sosial həyatı üçün önəmli olan bu məlumata aydınlıq gətirmək üçün mədəniyyət və turizm şöbəsinin müdiri Gülgün Kərimovla görüşdük. O bildirdi ki, bu təşəbbüsü rayon İcra Hakimiyyətinin başçısı Cümşüd Musayevin razılığı ilə nazirlik qarşısında biz qaldırmışıq. İlin əvvəlində rayon mərkəzi kitabxanası yeni binaya köçürüldükdən sonra həmin binada qalereyanın yaradılmasını nəzərdə tutduq. Lakin uzun illər burada təmir-bərpa işləri aparılmadığından bina tamamilə yararsız hala düşmüşdü. Odur ki, binanın əsaslı təmirə ehtiyacı var idi.

Respublika Mədəniyyət və Turizm Nazirliyi qarşısında məsələ qaldıranda şöbənin balansında olan məhz bu binada qalereyanın yerləşdirilməsi və binada əsaslı təmir işləri görülməsini xahiş etdik. Nazirlik tərəfindən təklifimiz və xahişimiz nəzərə alındı və konkret tədbirlər görüldü. Yeri gəlmişkən, mən bizə göstərdiyi diqqət və qayğıya görə Mədəniyyət və Turizm naziri Ə.Qarayev cənablarına öz dərin minnətdarlığımı bildirirəm. Əlbəttə, bu qalereyanın fəaliyyətə başlaması ilk növbədə rayon əhalisinin müxtəlif təbəqələri arasında təsviri, dekorativ sənətə marağın artmasına, estetik tərbiyənin güclənməsinə, xalq incilərinin müdafiəsinə, milli mədəni irsin qorunmasına öz təsirini göstərəcəkdir. Bundan başqa qalereyanın nəzdində rəssamlıq kursunun da açılmasını nəzərdə tutmuşuq.

G.Kərimovun məlumatından sonra qalereya üçün nəzərdə tutulmuş binada aparılan təmir-bərpa işlərinin gedişi ilə də maraqlandıq. Bildirdilər ki, bu işlə Yaşar Aslanovun direktor olduğu "Səma" Məhdud Məsuliyyətli cəmiyyət məşğul olur. Y.Aslanovla söhbətdən öyrəndik ki, qalereya üçün ayrılmış bu binanın əsaslı təmir olunması məqsədi ilə Respublika Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 18 min manat vəsait ayrılmışdır. Ötən müddətdə binanın dam örtüyü tamamilə dəyişdirilmiş, tavan və döşəməsi sökülmüş, qapı-pəncərələr dəyişdirilərək yenisi ilə əvəz edilmişdir. Bir sözlə, indiyədək binada 8 min manatlıqdan çox təmir-bərpa işləri aparılmışdır.

Y.Aslanovla söhbət zamanı o, MMC-nin işçilərindən dülgər Məmmədəli Orucovun, suvaqçılardan Mayıl Muradovun, İsrafil Nəsibovun, briqadir Etibar Nəsibovun adlarını məmnunluqla çəkdi. MMC-nin direktoru həmçinin onu da bildirdi ki, hazırda binanın daxilində və fasad hissəsində suvaq işləri başa çatır. Bir neçə gündən sonra döşəmə və tavan vurulacaq, elektrik xətti çəkiləcəkdir. Əgər işimizdə maliyyə çətinliyi yaranmasa nəzərdə tutmuşuq ki, sentyabr ayının sonunda və yaxud oktyabr ayının əvvəlində bütün işləri yekunlaşdıraq.

Hazırda binada qızğın iş gedir. İnşaatçılar rayonunun sosial həyatında yenilik yaradan, şəhərin gözəlliyini artıran daha bir binanın istifadəyə verilməsi üçün var qüvvələrini sərf edirlər.

**İ.BAYRAMOV**